# ALSTOM AZƏRBAYCANDA

2023

2008-ci ildən Alstom şirkəti Azərbaycanın sənaye tarixçəsinin bir hissəsidir. 2015-ci ildən tamamilə dəmiryol nəqliyyatı sektoruna yönələrək Alstom Cənubi Qafqaz regionu ilə möhkəm əməkdaşlıq edir. Azərbaycanın paytaxtı Bakıda fəaliyyət göstərən **30 nəfərlik** artmaqda olan komanda ilə Alstom şirkəti artıq Bakı Metrosu üçün **3 metro qatarı seksiyası** və «Azərbaycan Dəmir Yolları» QSC üçün **50 ədəd lokomotiv** təchiz etmişdir.

Tranzit imkanlarını genişləndirməyə xüsusi diqqət ayırmaqla öz iqtisadiyyatını müxtəlifləşdirən Azərbaycan regionda mühüm rol oynayır. Geosiyasi mövqeyi sayəsində Azərbaycan Avropa və Asiya arasında tranzitləri təmin edən Qara və Xəzər dənizləri arasında əsas birləşdirici ölkədir. Həmçinin Azərbaycan İran körfəzindən Mərkəzi və Şimali Avropaya yükləri cəlb etmək üçün Şimal-Cənub dəmiryol dəhlizini fəal şəkildə irəli çəkir.






## ƏSAS RƏQƏMLƏR

| | |
|---|---|
| **30** | işçi |
| **40** | Yük lokomotivi |
| **10** | Sərnişin lokomotivi |
| **3** | Metro qatarı seksiyası |

## ÖLKƏ OFİSİ

– Azərbaycan ofisi paytaxt **Bakıda** yerləşir

## TEXNİKİ XİDMƏT DEPOLARI

– Elektrik lokomotivlərinə texniki xidmətin göstərilməsi üçün olan depo **Bakıda**, Biləcəri qəsəbəsində yerləşir

– Elektrik lokomotivlərinə texniki xidmətin göstərilməsi üçün olan digər depo ölkənin qərbində, **Gəncə** şəhərində yerləşir

Alstom in Azerbaijan /EN/12.2020 – Photo credits: ©ALSTOM SA / Nurbek Zhantileu

© ALSTOM SA, 2021. All rights reserved. ALSTOM, the ALSTOM logo, all alternative versions and all mentioned trademarks of Alstom's Transport Domain, are the brands and trademarks of ALSTOM SA. The other names mentioned registered or not, belong to their respective owners. Technical and other forms of data contained in the present document are given for the purposes of information only. ALSTOM

ALSTOM

# LAYİHƏLƏRİMİZ

## SƏRNİŞİN LOKOMOTİVLƏRİ PRIMA M4

- 10 ədəd "AZ4A" lokomotivinin ADY-ə («Azərbaycan Dəmir Yolları» QSC) təchiz edilməsi

"AZ4A" lokomotivləri Şərq-Qərb dəhlizində 25 kV dəyişən cərəyanla, 50 Hz-də, Şimal-Cənub dəhlizində 3 kV sabit cərəyanla istismar edilmək məqsədilə xüsusilə ADY üçün layihələndirilmişdir. Minimum texniki xidmət tələb olunur və modulyar dizaynı sayəsində yüksək etibarlılıq səviyyəsi və aşağı istismar xərci təmin edilir.

## YÜK LOKOMOTİVLƏRİ PRIMA T8

- 40 ədəd "AZ8A" lokomotivinin ADY-ə («Azərbaycan Dəmir Yolları» QSC) təchiz edilməsi

8 oxu olan "AZ8A" lokomotivi dünyada ən güclü elektrik lokomotivlərindən biridir, 120 km/saat sürətlə hərəkət edə bilir və 9,000 tona yaxın yük çəkə bilir. Bu lokomotiv Qazaxıstanın dəmiryol şəbəkəsində sərt istismar rejimində özünü sübut etmişdir (2013-cü ildən).




## METRO QATARI SEKSİYASI

- Hər biri 5 vaqondan ibarət 3 ədəd metro qatarı seksiyası 2015-ci ildə Bakıda keçirilən birinci Avropa Oyunlarından qabaq qısa müddət ərzində 2014-cü ildə Bakıya çatdırılmışdır. Bu layihə çox uğurlu olmuşdur və metronun bütün 1520 mm-lik rels yollarında gələcək hərəkətliliyin inkişafının əsasını qoymuşdur.

Bu metro qatarı seksiyaları Alstom sərnişin rahatlığı texnologiyalarından maksimum dərəcədə istifadə olunaraq yeni nəsil 1520 mm enindəki rels üçün metro vaqonlarının ilk prototipi oldu. Metro vaqonlarında sərnişin hərəkətinin axını optimallaşdırmaq üçün vaqonlararası keçid və qatar hərəkətdə olarkən sərnişinlərin təhlükəsizliyini artırmaq üçün qapıların yanında şaquli məhəccərlər var.

# ALSTOM-DA KARYERA

**Alstom şirkəti gənc istedadları müəyyənləşdirərək və peşəkar təlim və gələcək karyera inkişafı üçün imkanlar yaradaraq ümumilikdə yerli kadrların inkişafına böyük diqqət ayırır.** Azərbaycanda fəaliyyət göstərən Alstom gələcəkdə məzunlarını cəlb etmək məqsədilə bir neçə universitetlə əməkdaşlıq edir:

- Azərbaycan Texniki Universitetiy
- Milli Aviasiya Akademiyası
- UFAZ (Fransız-Azərbaycan Texniki Universiteti), Strasburq Universitetinin filialı
- Sənaye və İnnovasiya üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi




**Təlim Mərkəzi**
Alstom, Azərbaycan Texniki Universiteti ilə birgə əməkdaşlıqla öz Təlim Mərkəzinin açılışını etmişdir. Bu proqram, karyerasını uğurla dəmiryol sahəsində qurmaq istəyən məzunların müvafiq bilik və bacarıqlara malik olmasını təmin etməklə Azərbaycan dəmiryol sahəsinin inkişafını dəstəkləmək üçün öhdəliyimizin bir hissəsidir. 2023-cü ilin iyun ayında mütəxəssislərin birinci qrupu proqramı bitirmişdir.

**ƏTRAFLI MƏLUMAT ÜÇÜN:**
**Alstom**
75 Rəsul Rza
AZ1014, Bakı
Azərbaycan
Telefon: +994124040738
**www.alstom.com**

Alstom in Azerbaijan /EN/12.2020 – Photo credits: ©ALSTOM SA / Nurbek Zhantileu

© ALSTOM SA, 2021. All rights reserved. ALSTOM, the ALSTOM logo, all alternative versions and all mentioned trademarks of Alstom's Transport Domain, are the brands and trademarks of ALSTOM SA. The other names mentioned registered or not, belong to their respective owners. Technical and other forms of data contained in the present document are given for the purposes of information only. ALSTOM